# Lənkəranda "Azərbaycan-tolerantlıq məkanı" mövzusunda elmi-praktik konfrans keçirilib

2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan olunması ilə əlaqədar Lənkəran şəhərində silsilə tədbirlər keçirilir. Heydər Əliyev Mərkəzində "Azərbaycan - tolerantlıq məkanı" mövzusunda keçirilmiş elmi-praktik konfrans belə tədbirlərdən biri idi. Konfransda Lənkəran ŞİH-nin, rayon hüquq-mühafizə orqanlarının, yerli icra strukturlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, müxtəlif millətləri təmsil edən ictimaiyyət nümayəndələri, din xadimləri və kütləvi informasiya vasitələrinin təmsilçiləri iştirak ediblər.

Konfransda çıxış edən Lənkəran ŞİH başçısı Taleh Qaraşov millətlərarası münasibətlərin tənzimlənməsində, xalqlar arasında dostluğun və birgəyaşayışın əldə olunmasında multikulturalist dəyərlərin və tolerantlığın misilsiz əhəmiyyətini qeyd etmiş və Azərbaycanda bu sahədə əldə olunmuş nailiyyətlərdən danışmışdır. O, Azərbaycanda multikulturalist dəyərlərin və tolerantlığın ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olduğunu, bunun üçün ulu öndər tərəfindən ölkədə yaşayan bütün xalqların istək və arzularını özündə ehtiva edən milli siyasətin müəyyənləşdirildiyini, Prezident İlham Əliyevin uğurla davam etdirdiyi həmin siyasətin ölkədə hökm sürən sabitliyin, əmin-amanlığın, qarşılıqlı etimadın, xalqlar dosluğunun qarantı olduğunu diqqətə çatdıraraq hər bir Azərbaycan vətəndaşının bu siyasəti ürəkdən bəyəndiyini söyləmişdir.

T.Qaraşov müasir dünyanın sürətlə qloballaşdığı, qloballaşdıqca da milli-dini zəmində toqquşmalar, terror hadisələri, məzhəb savaşları, məhəlli müharibələr, dövlətlərarası etimadsızlıq, ictimai-siyasi vəziyyətin kəskinləşməsi halları ilə üz-üzə qaldığı bir vaxtda Azərbaycanda milli həmrəyliyin, xalqlar dostluğunun, möhkəm siyasi sabitliyin qürurverici olduğunu, beynəlxalq aləmdə ölkəmizə nüfuz qazandırdığını bildirmişdir. Bu gün milli mənsubiyyətindən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı kimi hər bir lənkəranlının da gündən-günə artan milli həmrəyliyimizə, dinamik inkişafımıza, qüdrətlənən dövlətimizə, dinc təhlükəsiz həyatına görə məhz Prezident İlham Əliyevin böyük uğurla həyata keçirdiyi Heydər Əliyev siyasi kursuna minnətdar olduqlarını, bu suyasətin qələbəsinə tam inandıqlarını, bu inamla da Prezident İlham Əliyevin ətrafında sıx birləşdiklərini və doğma Vətənimizin tərəqqisinə xidmət etdiklərini bildirmişdir.

ŞİH başçısının müavini Rasilə Əliyeva, Qafqaz Müsəlmanları İdarəsinin Lənkəran bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Qəni Axundzadə, Lənkəran Rus icması ictimai birliyinin sədri Lidiya Koryagina, Lənkəran Dövlət Universitetinin tarix-fəlsəfə kafedrasının baş müəllimi Kamal Mahmudov, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbə müdiri Qağayı Məmmədov məruzə və çıxışlarda multikulturalizm ənənələrinin, tolerantlığın və dözümlülüyün xalqın yaşam tərzindən, tarixi keçmişindən, adət-ənənəsindən qaynaqlandığından Azərbaycanın dünyada tolerantlıq məkanı kimi tanındığını qeyd etmişlər.

***"Azərbaycan"***